# Azərbaycanın dəmir yolları yeni inkişaf mərhələsində

*Azərbaycanın müstəqilliyinin ilk illərində böyük çətinliklərlə üzləşən nəqliyyat sektoru dərin böhran və tənəzzül içərisində idi. Yalnız 1993-cü ildə ulu öndərimiz Heydər Əliyevin yenidən Azərbaycanda hakimiyyətə qayıdışından sonra bütün sahələrdə köklü islahatların həyata keçirilməsinə start verildi. İqtisadiyyatın digər sahələri ilə bərabər, ölkə nəqliyyatının əsas qollarından olan dəmir yolu nəqliyyatı da yeni inkişaf mərhələsinə qədəm qoydu. Ümummilli liderin təşəbbüsü ilə Azərbaycan Avropa-Qafqaz Asiya (TRASEKA) nəqliyyat dəhlizinə qoşuldu və Böyük İpək Yolunun bərpası üzrə həyata keçirilən məqsədyönlü işlər ölkəmizin iqtisadiyyatının gücləndirilməsində, nəqliyyat infrastrukturunun müasirləşməsində çox böyük rol oynadı.*

*Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş nəqliyyat islahatları bu gün onun siyasi varisi, Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən müasir dövrün tələblərinə uyğun olaraq uğurla davam etdirilir. Ölkə başçısının bu sahəyə xüsusi diqqət və qayğısının nəticəsidir ki, bu gün Azərbaycanın dəmir yolları müasir standartlara uyğunlaşdırılır. Qeyd edək ki, bu inkişaf son iki ildə özünü daha qabarıq şəkildə göstərir ki, bunun da təməlində məqsədyönlü dövlət siyasəti dayanır. Son illər bu sektorda görülən genişmiqyaslı qlobal işlər, həyata keçirilən məqsədyönlü mühüm tədbirlər barədə biz* ***“Azərbaycan Dəmir Yolları” QSC-nin “Sərnişindaşınmaları Departamenti”nin rəisi, əməkdar mühəndis Elyar Muradovla*** *görüşüb söhbət etdik:*

—Nəqliyyat ölkə üçün ən mühüm sahədir və son dövrlər Azərbaycanın dəmir yolunun müasirləşməsi, yenidən qurulub dünya tələblərinə cavab verməsi yönündə aparılan işlər, beynəlxalq əhəmiyyətli layihələrin uğurla gerçəkləşməsinin hamısı məhz cənab Prezidentimiz İlham Əliyevin təşəbbüsü və səyi nəticəsində mümkün olur. Bu gün Şərq-Qərb, Şimal-Cənub və bu il istifadəyə verilməsi nəzərdə tutulan Bakı-Tbilisi-Qars beynəlxalq və regional nəqliyyat dəzhlizlərinin reallaşdırılması ölkə başçısı tərəfindən qarşıya qoyulmuş məqsədyönlü işlərin məntiqi nəticəsidir.

Bu gün ölkənin dəmir yolu sahəsi özünün ən sürətli inkişaf, yenidənqurma dövrünə qədəm qoyub. Son iki il ərzində Azərbaycan Prezidenti cənab İlham Əliyevin bu sahənin müasir dünya tələbləri səviyyəsinə çatdırılması üçün qarşıya qoyduğu tapşırıq və göstərişləri “Azərbaycan Dəmir Yolları” QSC-nin sədri, millət vəkili Cavid Qurbanovun rəhbərliyi və gərgin fəaliyyəti ilə yüksək keyfiyyətlə və vaxtında icra olunur. Onu da qeyd etmək lazımdır ki, ötən son 2 ildə bu qurumun tarixində yeni bir dönəm, müasir standartlara cavab verən son texnologiyaların tətbiq olunması dövrü başlayıb. Bu dövr ərzində enerji təchizatının sabit cərəyandan dəyişən cərəyana keçirilməsi, işarəvermə və rabitə sisteminin yeniləşdirilməsi üçün avadanlıqların alınması, yol təsərrüfatının sağlamlaşdırılması, vaqon və lokomotiv parkının yeniləşməsi və digər mühüm tədbirlər uğurla həyata keçirilmişdir.

Bakı və Sumqayıt şəhərləri arasında mövcud sərnişin sıxlığını aradan qaldırmaq üçün 3 mart 2015-ci ildə Bakı-Xırdalan-Sumqayıt sərnişin sahəsində olan baş yolların əsaslı təmirinə start verilmiş və sentyabr ayının 2-də bu işlər başa çatdırılmışdır. Layihə çərçivəsində Bakı sərnişin, Xırdalan, Sumqayıt sərnişin stansiyalarının stansiya yolları və yoldəyişmələri yenilənmiş, Bakı sərnişin və Sumqayıt sərnişin stansiyalarında turniketlər və pos-terminallar quraşdırılmışdır. 13 may 2015-ci ildə Bakıda “Stadler Rail Group” şirkətindən KİSS markalı 5 ikimərtəbəli elektrik qatarlarının alınması üzrə saziş imzalanmış və qatarların hamısı Bakı sərnişin stansiyasına gətirilmişdir. Sentyabrın 12-də Bakı sərnişin stansiyasında Bakı-Sumqayıt marşrutu ilə hərəkət edəcək ilk sərnişin qatarının yolasalma mərasimi keçirilmişdir. Cənab Prezident mərasimdə iştirak etmiş, dəmiryolçularla görüşüb onları bu münasibətlə təbrik etmişdir. Qeyd edim ki, 19 noyabr 2016-cı il tarixdən etibarən Bakı-Sumqayıt-Bakı istiqamətində hərəkət edən elektrik qatarlarına Biləcəri və Xırdalan stansiyalarında dayanacaq verilməndən sonra daşınan sərnişinlərin sayı xeyli artıb. Belə ki, əvvəllər gün ərzində 2500-3000 sərnişin daşınırdısa, noyabr ayının 19-dan etibarən bu rəqəm 5000-i keçib. Yanvarın ayının 6-da Bakı-Sumqayıt-Bakı elektrik qatarının xidmətlərindən istifadə edən bir milyonuncu sərnişin qeydə alınıb.



Ötən iki ildə dəmir yolunun vaqon və lokomotiv parkının yeniləşdirilməsi istiqamətində görülən işlər çoxdur. Yük daşımalarına olan tələbatın ödənilməsi, xidmətin səviyyəsinin daha da yüksəldilməsi, əlavə yüklərin cəlb olunması və daşınan yüklərin mənzil başına təhlükəsiz olaraq çatdırılması üçün texniki vasitələrin yeniləndirilməsi işləri həyata keçirilmişdir.

2015-ci ilin martında “ADY” QSC ilə Rusiya Federasiyasının F.Dzerjinski adına “Uralvaqonzavod” Elmi-İstehsalat Korporasiyası arasında 3100 müxtəlif təmayüllü yük vaqonlarının alınması ilə bağlı müqavilə imzalanmış və yeni yük vaqonları ölkəmizə gətirilmişdir. Bundan əlavə istismar müddətini başa vurmuş yük vaqonlarının da əsaslı təmiri işlərinə başlanmışdır. Son zamanlar “Azərbaycan Dəmir Yolları” QSC-nin sədri Cavid Qurbanovun rəhbərliyi altında dəmir yolunun lokomotiv parkının yenilənməsi istiqamətində də mühüm addımlar atılır.

Qazaxıstandan 10 ədəd teplovozun alınması haqqında müqavilə imzalanmış və artıq həmin teplovozlar ölkəmizə gətirilmişdir. Yük daşınmalarında istifadə üçün sabit cərəyanla işləyən 4 ədəd elektrovoz alınmışdır. Həmin elektrovozlar elektron sürətölçən və müasir dartı mühərrikləri ilə təchiz edilmişdir.

Azərbaycan Prezidenti cənab İlham Əliyevin tapşırığı əsasında “ASAN xidmət” mərkəzlərinin olmadığı bölgələrdə vətəndaşların dövlət xidmətləri ilə təmin olunması üçün müasir texniki avadanlıqla təchiz olunmuş səyyar “ASAN qatar” konsepsiyası reallaşdırılıb. “ADY” QSC-nin “Sərnişindaşımaları Departamenti”nin Bakı vaqon deposunda “ASAN qatar” sisteminin tətbiqi ilə bağlı xüsusi vaqonlar hazırlanıb. Səyyar “ASAN qatar” gözləmə zalı, xidmət zalı, laboratoriya, əməkdaşların istirahət kupeləri olmaqla 4 vaqondan ibarətdir.

Keçən il dekabrın 28-də ölkə başçısı səyyar “ASAN qatar”la tanış olmaq üçün Biləcəri stansiyasında olmuşdur. “ADY” QSC-nin sədri, millət vəkili Cavid Qurbanov burada görülən işlər barədə cənab Prezidentə ətraflı məlumat verdi. Bildirdi ki, respublikamızda geniş dəmir yolu şəbəkəsindən, mövcud infrastrukturdan, kommunikasiya xətləri və ən müasir texnologiyalardan istifadə edərək yerlərdə vətəndaşlara yeni konsepsiya ilə xidmət göstəriləcəkdir. Səyyar “ASAN qatar” vasitəsilə, 4 dövlət orqanı—Ədliyyə, Daxili İşlər, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirlikləri, həmçinin Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən 9 növ xidmət göstəriləcək. Bununla bərabər, qatarda 3 növ funksional yardımçı xidmətlər—foto və tibb xidməti, o cümlədən “Azərpoçt” MMC tərəfindən göstərilən bank xidmətləri təşkil olunub. Burada ilk dəfə olaraq “ADY” QSC-nin xidmətləri üçün ayrıca pəncərə yaradılıb. “ASAN qatar”da 25 əməkdaş, 6 könüllü işləyəcək. Bu xidmətin həyata keçirilməsində əsas məqsəd region sakinlərinə dövlət xidmətlərinin göstərilməsi və sakinlərin məmnunluğunun təmin edilməsidir. Vurğulayım ki, səyyar “ASAN qatar” artıq fevral ayının 1-dən etibarən Qazax rayonundadır və ötən müddət ərzində 3000 nəfərə xidmət göstərmişdir. “ASAN qatar” fevralın 20-dən isə Tovuz rayonunda vətəndaşların xidmətindədir.

Ötən il dekabrın 29-u tarixindən Naxçıvan-Məşhəd-Naxçıvan beynəlxalq sürət qatarı hərəkətə başlayıb. Sürət qatarı Naxçıvan, Culfa, Təbriz, Tehran və Məşhəd marşrutu üzrə hərəkət edir. Bu layihənin gerçəkləşməsi hər iki tərəfdən gediş-gəlişin artmasına, gələcək əməkdaşlığın genişlənməsinə imkan yaradacaq.

Bu gün “ADY” QSC-nin sədri Cavid Qurbanovun rəhbərliyi ilə dəmir yolunun ayrı-ayrı müəssisələrində də əsaslı təmir-tikinti, yeniləşmə işləri də uğurla həyata keçirilir. Fevral ayının 10-da “ADY” QSC-nin inzibati binasında əsaslı təmir işlərindən sonra açılış mərasimi keçirilmişdir. Təmirdən sonra inzibati binada yaradılan şəraitlə tanış olmaq üçün Prezident cənab İlham Əliyev və xanımı Mehriban Əliyeva burada oldular. “ADY” QSC-nin sədri Cavid Qurbanov dövlətimizin başçısına binada aparılan işlər, işçilərin fəaliyyəti üçün yaradılmış şərait barədə ətraflı məlumat verdi. Bildirdi ki, burada işçilərin rahat və səmərəli fəaliyyəti üçün hər cür şərait yaradılıb, bütün iş otaqları yeni mebel dəstləri və texniki avadanlıqlarla təchiz olunub. Qatarların hərəkətinin onlayn və GPS izlənmə sistemləri tətbiq edilib. İnzibati bina mərkəzləşdirilmiş havalandırma sistemi ilə təchiz olunub. Elə həmin gün, fevralın 10-da Bakı Dəmir Yolu vağzalı da yenidənqurmadan sonra istifadəyə verilib. Bakı Dəmir Yolu vağzalında da aparılan təmir-tikinti, müasirləşmə işləri ilə tanış olmaq üçün Azərbaycan Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva da burada olmuşlar. Vağzal binasında milli ornament saxlanmaqla təmir işləri yüksək keyfiyyətlə həyata keçirilmiş, gözoxşayan görkəmə gətirilmişdir. Bilet kassaları, sərnişin



platformaları əsaslı təmir olunub, eskalatorlar yenisi ilə əvəzlənib. Yük, sərnişin və əlillər üçün liftlər quraşdırılıb. Burada inzibati otaqlar, müasir tələblərə cavab verən ticarət və iaşə obyektləri, gözləmə zalı, saxlama kameraları və s. sərnişinlərin istifadəsinə verilib. Sərnişinlər pulsuz Wİ-Fİ sistemindən də istifadə edəcəklər. Vağzala gələn sərnişinlərin rahatlığının təmin olunması üçün platformaların giriş hissələrində, vağzala daxil olmamış yaradılmış böyük informasiya tabloları vasitəsilə qatarların hərəkət qrafiki barədə bütün məlumatları əldə edə bilərlər. Vağzal binasının ikinci mərtəbəsində 2 saylı “ASAN kommunal” fəaliyyət göstərəcək. Bu mərkəz qeydiyyat yerindən asılı olmayaraq bütün vətəndaşlara, o cümlədən vağzaldan istifadə edən bütün sərnişinlərə xidmət göstərəcək. Bundan başqa, dördü vağzalda, dördü isə şəhərə çıxış üçün müasir üslubda 8 tunel yaradılıb. Dəmir yolu vağzalının 7 platforması və 8 yolu da əsaslı təmir olunub. Təmir zamanı işlərin yüksək keyfiyyətlə yerinə yetirilməsinə “ADY” QSC-nin sədri Cavid Qurbanov şəxsən, mütəmadi olaraq nəzarət etmişdir.

Onu da xüsusi qeyd etmək lazımdır ki, ötən 2 il ərzində Cəmiyyət rəhbərliyi dəmir yolunda çalışan işçilərin sosial məsələlərinin həlli, əməkhaqlarının artırılması istiqamətində mühüm tədbirlər həyata keçirmişdir. “ADY” QSC-nin sədri Cavid Qurbanovun dəmir yolunda çalışanlara diqqət və qayğısının nəticəsidir ki, ötən dövrdə 150 nəfər dəmiryolçu yeni mənzillərlə təmin olunub və bu işlərin davamlı olması üçün tədbirlər davam etdirilir, yaxın gələcəkdə ehtiyacı olan dəmiryolçular da yeni mənzillərlə təmin olunucaqdır. Ötən dövrdə dəmiryolçuların xeyli hissəsinin əməkhaqları da nəzərəçarpacaq dərəcədə artırılmışdır və bütün bu işlər Cəmiyyət rəhbərliyinin daim nəzarətindədir.

“Azərbaycan Dəmir Yolları” QSC-nin “Sərnişindaşımaları Departamenti”nin kollektivi bundan sonra daha əzmlə çalışacaq, “ADY” QSC rəhbərliyinin bizim qarşımızda qoyduğu tapşırıqların vaxtında yerinə yetirilməsini təmin edəcəkdir.





**Əli SADIQOV,**
**“Respublika”.**